***Məhsəti SÜLEYMANOVA***
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*suleymanova.mehseti@mail.ru*
*ORCİD: 0000-0001-8191-0708*
*https://doi.org/10.59849/2309-7922.2026.1.209*

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YARDIMLAŞMA DƏYƏR KİMİ

**Xülasə**

İnsan cəmiyyət içərisində yaşayır. Birgəyaşayış özü ilə birgə yardımlaşma ehtiyacını da gətirir. Yardımlaşmanın az olduğu toplumlarda fərdlər həyat və məişət problemləri qarşısında tək qalır və bu, insanı intihara qədər apara bilər. Çünki yardımlaşmanın maddi tərəfləri olduğu kimi mənəvi tərəfləri də vardır.

Türk xalqlarında yardımlaşma dəyərləri həyatın bütün sahələrini əhatə edir və çoxcəhətliliyi və zənginliyi ilə xüsusi seçilir. Türk xalqları ailəsinə daxil olan Azərbaycan xalqında da bu məsələ mədəniyyətin və məişətin bütün sahələrinə nüfuz etmişdir. İstisnasız olaraq bu, bütün bölgələrimizdə eyni dərəcədə vacib hesab olunmuşdur. Bu məsələni mədəniyyətin bütün qatları üzrə ciddi şəkildə araşdırılması lazımdır. Yardımlaşmanın sistemli şəkildə öyrənilməsi Azərbaycan elminin inkişafına kömək edə bilər.

**Məqsəd**: Bu məqalənin əsas məqsədi, Azərbaycan mədəniyyətində dərin kök salmış yardımlaşmanın növlərini müəyyənləşdirmək, onun mədəniyyətin hansı qatlarına nüfuz etdiyini aydınlaşdırmaqdır. Həmçinin ötən dövrlərdən indiki zamanadək hansı dəyişmələrin olduğunu izləməkdir.

**Metodologiya**: Bu məqalə, mövcud nəzəri yanaşmalarla yanaşı, həm də analitik təhlil üsuluna əsaslanır. Əsasən yardımlaşmanın xalq və cəmiyyət üzərindəki təsirlərini müəyyənləşdirmək üçün müqayisəli yanaşmalar və keyfiyyətli analizlər tətbiq edilmişdir.

**Tədqiqatın nəticələri**: Bu məqalədə yardımlaşmanın cəmiyyət üzərindəki təsiri ətraflı şəkildə təhlil edilmişdir. Türk xalqlarının mədəniyyətindəki mövcud olan yardımlaşma növləri ilə müqayisə edilmiş, burada kəskin fərqin olmadığı aşkarlanmışdır.

**Açar sözlər:** yardımlaşma, pörnək, alışma, iməcilik, pay, ehsan

***Mahsati SULEYMANOVA***

## MUTUAL AID AS A VALUE IN AZERBAIJANI CULTURE

**Summary**

Humans live in society. Living together brings with it the need for mutual assistance. In societies where there is little assistance, individuals are left alone in the face of life and domestic problems, and this can lead a person to suicide. Because assistance has both material and spiritual aspects.

The values of mutual assistance among Turkic peoples encompass all spheres of life and are particularly distinguished by their multifacetedness and richness. This issue has also penetrated all spheres of culture and everyday life among the Azerbaijani people, who are part of the Turkic family. Without exception, this has been considered equally important in all our regions. This issue needs to be seriously investigated at all levels of culture. Systematic study of cooperation can contribute to the development of Azerbaijani science.

**Purpose:** The main purpose of this article is to identify the types of cooperation that are deeply rooted in Azerbaijani culture, to clarify which layers of culture it penetrates, and to trace the changes that have occurred from past periods to the present.

**Methodology:** This article is based on existing theoretical approaches as well as analytical analysis. Comparative approaches and qualitative analyses were mainly used to determine the effects of aid on people and society.

**Research results:** This article analyzes in detail the impact of mutual aid on society. It was compared with the types of assistance existing in the culture of the Turkic peoples, and it was found that there was no sharp difference.

**Keywords:** mutual aid, sharing, attachment, imbecility, share, charity

***Мехсети СУЛЕЙМАНОВА***

**ВЗАИМОПОМОЩЬ КАК ЦЕННОСТЬ В АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЕ**

**Резюме**

Человек живет в обществе. Сосуществование также влечет за собой необходимость взаимопомощи. В обществах, где сотрудничество слабо развито, люди остаются одни перед лицом жизненных и бытовых проблем, что может привести к самоубийству. Ведь сотрудничество имеет как материальные, так и моральные аспекты.

Ценности взаимопомощи у тюркских народов охватывают все сферы жизни и отличаются особой многогранностью и богатством. Эта тема проникла во все сферы культуры и быта азербайджанского народа, входящего в тюркскую семью. Без исключения, это считалось одинаково важным во всех наших регионах. Этот вопрос требует серьёзного изучения на всех уровнях культуры. Систематическое изучение сотрудничества может способствовать развитию азербайджанской науки.

**Цель:** Основная цель данной статьи – выявить типы сотрудничества, имеющие глубокие корни в азербайджанской культуре, выяснить, в какие пласты культуры оно проникает, и проследить произошедшие изменения от прошлых периодов к настоящему времени.

**Методология:** Данная статья основана на существующих теоретических подходах, а также на аналитическом анализе. Для определения влияния

помощи на людей и общество в основном использовались сравнительный и качественный анализ.

**Результаты исследования:** В данной статье подробно анализируется влияние взаимопомощи на общество. Его сравнили с видами помощи, существующими в культуре тюркских народов, и выяснилось, что резкой разницы нет.

**Ключевые слова:** взаимопомощь, обмен, привязанность, символическое действие, благотворительность

**Giriş**

İnsan sosiumda mövcud olur. Onun cəmiyyətdən kənar yaşaması, təbii ki, mümkün deyildir. Birgəyaşayışın da öz tələbləri və şərtləri vardır. Bu tələb və şərtləri Abdulmuttalip Baycar belə ifadə edir: "Başqaları ilə birlikdə yaşamaq məcburiyyətində qalan insanlar həm təbiətə, həm də sosial-mədəni-iqtisadi şəraitə qarşı həyatlarını qənaətbəxş şəkildə davam etdirmək üçün həmrəyliyə və əməkdaşlığa ehtiyac duyurlar" (2, s. 200). Bu şərtlər insanın yalnız cəmiyyətin bir fərdi olmasını təmin etmir, eyni zamanda onun birgəyaşayışa uyğunlaşmasına, bu cəmiyyətin normal bir üzvü kimi qəbul olunmasına xidmət edir: "Həmrəylik və əməkdaşlıq fərdlərin cəmiyyətdə sağlam yaşamasının vacib şərtlərindən biri kimi qəbul edilir" (2, s. 200). Toplum tərəfindən qəbul olunmuş bir fərdə çevrilmək üçün insan cəmiyyətlə daim "əməkdaşlıq" etməli, onun qayda-qanunlarına, şərtlərinə tabe olmalıdır. Abdulmuttalip Baycar bunu David Krechə və Ali Aytənə istinad edərək belə şərh edir: ""Əməkdaşlıq" sosial elm tədqiqatlarında "prososial davranış" adı altında müzakirə olunur. Prososial davranış, bir-birinə kömək etmək, həmrəylik, ədalətli olmaq, dürüst davranmaq, paylaşmaq kimi mükafatlandırılıb-mükafatlandırılmamasından asılı olmayaraq cəmiyyətin və fərdlərin xeyrinə edilən hər hansı bir hərəkət kimi müəyyən edilir. Həmrəylik "sosial müstəvidə bir məqsədə çatmaq üçün əməkdaşlıqdan doğan güc; həmrəylik" kimi təyin edilə bilər. "Həmrəyliyin olduğu yerdə sosial bağlar güclüdür və verilən yardımın qarşılığı gözlənilməsə də, sosial bağların zəiflədiyi vəziyyətlərdə həmrəylik zəifləyir." (2, s. 201).

Bura kimi deyilənlərdən belə başa düşə bilərik ki, insan cəmiyyət içərisində yaşayır. Birgəyaşayış özü ilə birgə yardımlaşma ehtiyacını da gətirir. Yardımlaşmanın az olduğu toplumlarda fərdlər həyat və məişət problemləri qarşısında tək qalır və bu, insanı intihara qədər apara bilər. Çünki yardımlaşmanın maddi tərəfləri olduğu kimi mənəvi tərəfləri də vardır.

**Azərbaycanda yardımlaşmanın formaları.** Türk xalqlarında yardımlaşma dəyərləri həyatın bütün sahələrini əhatə edir və çoxcəhətliliyi, zənginliyi ilə xüsusi seçilir. Türk xalqları ailəsinə daxil olan Azərbaycan xalqında da bu məsələ mədəniyyətin və məişətin bütün sahələrinə nüfuz etmişdir. İstisnasız olaraq bu, bütün bölgələrimizdə eyni dərəcədə vacib hesab olunmuşdur. Bu məsələnin mədəniyyətin bütün qatları üzrə ciddi şəkildə araşdırılması lazımdır. Yardımlaşmanın sis-

temli şəkildə öyrənilməsi xalq mədəniyyətinin daha yaxşı öyrənilməsinə kömək edə bilər.

Beləliklə, Azərbaycan xalqının əsas adət-ənənələrindən biri də yardımlaşma adətidir. Bu adət biz özümüzü dərk edəndən hafizəmizə hopmuş, qanımıza işləmişdir. Ənənənin bu formasında insan sosiallaşır, bir-birinə daha doğmalaşır, birgə əmək nəticəsində ən ağır işlərin öhdəsindən asanlıqla gəlir. Adət-ənənəmizdə mövcud olan yardımlaşma bu gün də davam edir. Amma, təəssüf ki, bu adətlər artıq sönükləşib, gün keçdikcə unudulmağa doğru gedir. Ona görə düşünürük ki, bu məsələ ciddi şəkildə araşdırılmalıdır.

Türk xalqlarını, o cümlədən Azərbaycan xalqı mövcud olandan bəri yardımlaşma, paylaşma adətləri də mövcud olmuşdu. Buna bizim qədim adidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında dəfələrlə rast gəlirik. Məsələn, "İç Oğuza Taş Oğuz asi olub Beyrək öldügi boyu bəyan edər" adlı boyda deyilir: "Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı" (5, s.123). Bu adət insanlar arasında sosial bərabərsizliyi aradan qaldırır, bir tərəfin həddindən artıq varlanmasının qarşını alırdı. Bundan başqa, dastanın müxtəlif yerlərində hər hansı bir arzunun, diləyin yerinə yetməsi üçün "ac görsə, doyurar, çılpaq görsə, donatardı" ifadələrinə rast gəlirik. Hər hansı bir şölənin keçirilməsi ilə bağlı "Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı" formulları də dastanda mövcuddur (5, s.35).

Xalq arasında yardımlaşmanın müxtəlif növləri vardır. Paylaşmaq baxımından onu iki növə ayıra bilərik: əməyin və əşyanın paylaşılması. Biz əməyin paylaşılması deyəndə ölkəmizin bütün bölgələrində mövcud olan müxtəlif iməcilikləri nəzərdə tuturuq. İməciliklər həm xalq bayramlarında, həmçinin dini bayramlarda aktuallaşır, toy, yas kimi mərasimlərimizdə daha da qabarıqlaşır, həm də gündəlik həyatda təzahür edir. İməcilik əməyin paylaşılması olmaqla bərabər, həm də müəyyən mənada əşyaların paylaşılmasıdır. Bəzi bölgələrimizdə müəyyən iməciliklərə qohum-qonşu, kənd camaatı işçi qüvvəsi verməklə yanaşı, həm də əşya – yəni yemək də gətirirdilər. Məsələn, Şəkidə ev tikən şəxsə kömək üçün yaxınları bir qab xəngəl, bir dörə aş, bir vedrə dovğa, bir xoruz, bir şaqqa heyvan və s. ərzaqlar da verərdilər. Ev tikmək böyük məsrəf tələb etdiyindən kənd camaatı iməciliyə gələnlərin yemək ehtiyacını belə qarşılayardı.

Ağır iş bir adam, yaxud bir ailə üçün böyük yükdür. Kollektiv şəkildə icra olunanda isə bu, yük olmaqdan çıxır. Kollektiv şəkildə işləmək bu yükü zövqlə görülən əməyə çevirir. Nəzərə alsaq ki, bəzi bölgələrimizdə (məsələn, Zaqatala-Balakən bölgəsində) iməciliklərdə musiqi də olurdu. Bu regionda tənburçuluq məşhurdur, bölgədə xeyli sayda tənburçu vardır. Ləman Vaqifqızı (Süleymanova) tənburun auditoriyasından bəhs edərkən qeyd edir ki, "Damburun ifa edildiyi məclislərdən biri də iməciliklər idi" (6, s. 28). Tənburun və yaxud da digər musiqi alətinin iməcilikdə iştirakı onu həm də əyləncə yerinə çevirirdi ki, bu da orada iştirakı zövqlü hala gətirirdi. Onu da qeyd edək ki, musiqinin olmadığı iməciliklər həm də insanların sosiallaşmaq ehtiyacını ödəyirdi. Çünki oraya toplaşmış iştirakçılar zarafat edir, kəndin müxtəlif məsələləri barədə müzakirələr aparır, fikir mü-

badiləsi edir və s. Deməli, iməciliklər yardımlaşma prosesi olmaqla bərabər, həm də insanlar arasında ünsiyyəti dərinləşdirirdi. Müasir dövrümüzün əsas bəlalarından biri olan asosiallıq məhz bu cür yardımlaşma növlərinin tədricən azalması, yaxud da itirilməsi ilə meydana çıxmışdır.

Yuxarıda qeyd etdik ki, yardımlaşmanın ən çox rast gəlindiyi yer xalq bayramlarıdır. Novruz bayramındakı adətlərin bir qismi dədə-babalarımızdan qalan və bu gün də davam edən yardımlaşma formasıdır. Bilirik ki, Novruz bayramına qədər çərşənbələrdə də yardımlaşmaya ən müxtəlif formalarda rast gəlinir. Bir qisim bölgələrimizdə ölü çərşənbəsi adlandırılan üçüncü çərşənbədə qəbir üstünə Novruz xonçalarının aparılması, bəzən ehsan süfrələrinin də qəbiristanlıqlarda açılması, ehsanın bir hissəsini yeyib, bir hissəsini isə gələnlərə paylayıb, yerdə qalanı da orda qoyub gəlmək kimi adətlər də yardımlaşmanın bir növüdür. Bu adəti iki baxımdan dəyərləndirmək yerinə düşür. Qəbirüstünə aparılan xonçaları da ölü üçün verilən ehsanın bir növü kimi də qiymətləndirmək olar. Bu xonçalarda aparılan yeməklər qəbiristanlığa yığılanlar tərəfindən yeyilir, yerdə qalan yemək və şirniyyatlar imkansız adamların götürməsi üçün qəbirlərin üstünə qoyulurdu. Həmçinin qəbirlərin üstünə qurd-quşun yeməsi üçün də müəyyən qədər yemək səpilirdi. Yalnız imkansız adamların deyil, qurd-quşun belə nəzərə alınması bu xalqın nə qədər böyük mədəniyyətə sahib olmasının daha bir göstəricisidir. Deməli, Azərbaycan xalqında yardımlaşma, paylaşma o qədər geniş yayılıb ki, bu yalnız insanlar üçün deyil, hətta həşəratlar, eləcə də bütün canlı varlıqlar üçün nəzərdə tutulmuşdur.

Axır çərşənbədə evlərin bacalarından sallanan qurşaqların, sonralar isə qapılara atılan papaqların müxtəlif şirniyyat və meyvələrlə doldurulması, yaşlıların, böyüklərin ziyarət olunması da yardımlaşmanın bir növüdür. Yaşlıların, böyüklərin ziyarət edilməsi onu göstərir ki, yardımlaşma yalnız maddi olmur, eyni zamanda bizim mədəniyyətdə mənəvi yardımlaşma da vardır. Xalq arasında "könül almaq" ifadəsi vardır ki, bu ifadənin özü də yardımlaşmanın mənəvi formasını izah edir. Yaşlıların bayramlarda ziyarət olunması onların könlünü xoş edir, lazımlı olduqlarını hiss etdirir. Düşünürük ki, yardımlaşmanın bu növü maddi yardımlaşmadan da üstündür.

Biz bunu yalnız milli bayramlarda deyil, dini bayramlarda da müşahidə edirik. Ramazan və Qurban bayramlarında da yaxınlara, qohum-qonşulara, imkansız adamlara bayram payı göndərməklə yanaşı, onlar ziyarət də olunur. Həmin ziyarətlər zamanı payların aparılması, gedilən evdə açılan süfrələr də paylaşmaya, yardımlaşmaya bir işarədir.

Qurban bayramının islamı dəyərlərə söykənən bir bayram olması danılmaz həqiqətdir. Biz də bu bayramı islamdan sonra keçirməyə başlamışıq. Ancaq türk düşüncəsində islamdan öncə də qurban vermə təfəkkürü olmuşdur. Bunun içərisində qanlı və qansız qurbanlar vardır. İslam düşüncəsinə görə, imkanı çatan hər bir müsəlman Qurban bayramında Allahın yolunda bir qurban kəsməlidir. Türk təfəkküründə isə qada-bəlanın baş verməməsi, yaxud da sovuşması üçün (Bu qur-

bana xalq arasında qada qurbanı deyirlər), demə qurbanı (Hər hansı bir niyyətinin həyata keçməsi üçün kəsilən qurban nəzərdə tutulur) və s. qurban növləri vardır ki, bunların islam dini ilə heç biri əlaqəsi yoxdur. Bu qurbanlar türk xalqları islamı qəbul etməmişdən də xalq arasında mövcud idi və deməli, islamdan daha qədim dövrlərlə bağlıdır. Bu qurbanlar Qurban bayramından ya əvvəl, ya da sonra kəsilməli, İsmayıl qurbanı ilə üst-üstə düşməməlidir. Bütün qurbanlar Allah yolunda kəsilir, kəsilmiş qurban əti isə imkansızlara, kasıblara çatır. Deməli, paylaşma və yardımlaşma təfəkkürü yenə özünü göstərir. Başqasına əl tutmaq bu xalqın psixologiyasında elə yer edib ki, bunu çıxarıb atmaq heç cür mümkün deyildir.

Azərbaycan xalqı oturaq və elat dünyası kimi iki böyük mədəniyyətin daşıyıcısıdır. Qeyd edək ki, vaxtilə tamamilə elat mədəniyyəti yaşayan Azərbaycan xalqı tədricən oturaqlaşmaya başlamışdır. Hazırda oturaqlaşma elat mədəniyyətini üstələsə də, elat dünyasına aid dəyərlər hələ də xalq arasında yaşamaqdadır. Yardımlaşma elat mədəniyyətinin də əsas cəhətlərindən biridir. Elat dünyası el şəklində yaşayırdı. Burada cəmiyyətin toplu şəkildə yaşamı özünü göstərir. Belə cəmiyyətlərdə yardımlaşmanın olması mütləqdir. Çünki yardımlaşma olmasa, elat ailəsi azalardı. Yəni “elat dünyasında yardımlaşma mədəniyyətin tipidir” demək olar. Elat dünyasının yardımlaşma şəkillərindən biri pörnəhdi.

**Pörnəh** – bu qayda, çox təəssüf ki, artıq unudulub və ancaq yaşlı insanların xatirələrində yaşayır. Pörnəh elat, yəni tərəkəmə mədəniyyətinə xas yardımlaşma formalarından biridir. Əvvəlcə onu qeyd edək ki, elmi ədəbiyyatda bu yardımlaşma forması ilə bağlı heç bir məlumata rast gəlmirik. Yalnız lüğətdə belə bir məlumat verilir: *(Qarakilsə, Zəngilan) bax* pornax I. – *Pörnəklər çobanın haqqını hər ayın axırında verillər (Zəngilan) (10).*

Göründüyü kimi, bu məlumat kifayət qədər yetərsizdir və bizə lazım olan mənanı ifadə etmir. Bəs pörnəh nədir? Tərəkəmə mədəniyyətinin daşıyıcısı olan yaşlıların dediyinə görə, kimin mal-heyvanını sel aparırsa, hərə gətirib ona beş-on quzu verir ki, onun da mal-heyvanı olsun. Buna elat mədəniyyətinin daşıyıcıları arasında pörnəh deyirdilər. Pörnəhdən bir müddət vergi alınmazdı.

Tərəkəmələrin pörnəyə bənzər yardımlaşma şəkillərindən biri də **alışma**dır. Alışmanın iki növü ilə qarşılaşırıq. Bunlardan biri qıçı qırılmış, yaxud hər hansı bir səbəbdən zədələnmiş heyvanı sahibinə ziyan dəyməməsi üçün kənd camaatı yığışar, kəsib bölərdilər. Kəsilmiş heyvanın əvəzinə mal sahibinə hərə bir quzu, yaxud toğlu verərdi ki, o, həmin heyvanları satıb inək ala bilinsin. Yaxud da zədələnmiş, köpmüş heyvanı yığılıb alışma edərdilər. O zamanlar dağda qəssab olmadığından qonşular, kənd camaatı yığılıb həmin heyvanın ətini bölürdü. Həmin ət tərəziyə qoyulmaz, gözəyarı bölünürdü. Mal sahibinə istəyən ətin pulunu verər, istəməyən də ətin əvəzində quzu verərdi (8, s. 116-117).

Azərbaycanın müxtəlif bölgələrində keçirilən toy mərasimlərində, o cümlədən, müxtəlif xeyir işlərdə imkansız ailələrə pay göndərilməsi kimi bir adət də vardır. O cümlədən şikəst, xəstə insanların, həmin mərasimə gələ bilməyən şəxslərin nəzərə alınması, orda bişən məclis yeməklərindən onlara pay ayrılması da

xalqımıza mövcud olan paylaşmanın, yardımlaşmanın bir növüdür. Digər bir tərəfdən bu adət toylarımızla məhdudlaşmır, yas mərasimlərində də özünü göstərir. Yas ehsanın, yasa gəlməyənlər və yaxud hamilə qadınlar, xəstələr, şikəstlər, imkansız ailələr üçün göndərilməsi adəti, demək olar ki, bütün bölgələrimizdə vardır. Evlərə paylanan yas ehsanlarından biri də qatlanmış halva-lavaş bükümüdür. Bu ehsan növü Naxçıvanda, xüsusilə də, Şərur rayonunun kəndlərində də (məsələn, Havış kəndində) mövcuddur. Havış camaatı qapı-qapı düşüb paylanan halva-lavaş bükümünü ülüş adlandırırlar. Ülüş paylanarkən evdəki adam sayına uyğun bölgü aparılardı (9, s.107-108). Burada, yeri gəlmişkən, üluş sözünün mənasına da toxunmaq istəyirik. Hikmet Demirci və Şınaray Bürkütbayeva müxtəlif mənbələrə istinad edərək yazırlar: "Qədim türk dilində ülüş qismət, qismət, şans, pay, pay, parça, insanlar arasında pay bölən mənalarını ifadə edir; qazax türkcəsində pay, pay, haqq mənasındadır. Əslində ülüsün tarixi prosesdə dəyişikliyə uğradığı və inanc əsasında müqəddəsliklə əlaqələndirildiyi görünür. XV əsrə qədər türk idarəçilik yanaşmalarında şəxsi payı olan ülüş, Göy Tanrının insanlara, xüsusən də, hökmdarlara Uluğ-kut kimi göndərdiyi və payladığı paydır. Uluğ-kutdan (Allahın ayırdığı pay) ülüşə (süllə ailəsinin üzvləri arasında pay) çevrilən anlayış əslində hakim təbəqədə fərdlərin fəal iştirakını təmin edən bir inkişafı göstərir (3, s.200). Azərbaycanın müəyyən bölgələrində ülüş\ürüş sözü payla birgə də işlədilərək pay-ürüş formasına düşür. Deməli, ülüş elə-belə pay olmayıb Tanrı tərəfindən göndərilən paydır.

Bəzi bölgələrimizdə, xüsusən də, Qərbi Azərbaycanda bir "çiy ehsan" anlayışı da var (7, s. 20). Çiy ehsan ətin kəsilməsi və adam başına ailələr üçün paylanmasıdır. Bu paylaşma, yardımlaşma növü Qurban bayramında qurban ətinin paylanmasına bənzəyir. Hər ikisinin kökündə kasıb, imkansız ailələri nəzərə almaq dayansa da, çiy ehsan adəti, fikrimizcə, daha qədimdir. Çünki bu adət islamdan öncəki adətdir. Qurban bayramını biz islam dini ilə birgə almışıq. Amma çiy ehsan paylamaq adəti islamdan öncə də mövcud olmuş dədə-baba adətimiz olub, kökündə xalqımızın ruhunda olan mərhəmət, öz evində qazan qaynayanda qonşunun evini də nəzərə almaq təfəkkürü dayanır. Bəzi hallarda Azərbaycan xalqında bu təfəkkür o həddə çatır ki, qarşısındakının mənafeyi özününkündən də önə keçir. Məsələn, "Allah qonşumu iki inəkli eləsin, mənə bir inək də versə, olar" deyimi bu düşüncə tərzinin ən gözəl ifadəsidir.

Bunu da qeyd etmək lazımdır ki, yasda müxtəlif paylaşmaların olması, ehsanın verilməsi, mərasim yeməklərinin kənd arasında – yaşlılar, xəstələr, hamilələr, şikəstlər və s. üçün paylanması yalnız yardımlaşmanı göstərmir. Eyni zamanda da bu həmin ehsanın qəbula keçməsi üçün icra olunurdu. Xalq inancına görə, əgər ehsan qəbul olunarsa, ölünün ruhu digər tərəfdə yaxşı qarşılanardı. Başqa xalq inancına görə, toyda da həmin yeməklərin paylanması hansısa bir ağzıdualının duası ilə yeni evlənənlərin xoşbəxt olmasına şərait yaradardı. Əslində bu adətlərin kökündə türk xalqlarının mifoloji təsəvvürləri dayanır. Bunlardan başqa yaşlılar "tikənin ovsanaya düşməsi", "avsanata keçmək" kimi ifadələri tez-tez işlədirlər.

Bu ifadələr də həmin təfəkkürün xalq mədəniyyətinə yansımasıdır. Belə qəbul etmək olar ki, bizim xalqın təfəkküründə “yaxşı işlər gör, savab əməllər et ki, diləklərin həyata keçsin, Allah səni qada-baladan qorusun” düşüncəsi vardır. Bu düşüncə də öz növbəsində yardımlaşmanın daha geniş vüsət almasına səbəb olmuşdur.

Yardımlaşmadan danışarkən, heç şübhəsiz ki, 2019-cu ildə dünyanı sarsıdan Covid19 bəlasından yan keçmək mümkün deyil. Çünki həmin dövrdə dövlət, həkimlər və tibb işçiləri ilə bərabər Azərbaycan xalqı yardımlaşmanın ən gözəl örnəklərini nümayiş etdirdi. Xəstəliyin tüğyan etdiyi dönəmlərdə belə xəstə qohum və qonşularının qapısının ağzına bişirdiyi yeməkləri, etdiyi bazarlıqları qoyan az adam görmədik. Bundan başqa, xəstə iş yoldaşlarına müxtəlif müəssisələrin və sıravi iş yoldaşlarının göstərdiyi dəstəklər də olduqca diqqətəlayiq idi. Xəstə insanlara edilən zənglər, ürək-dirək vermələr, hamılıqla edilən dualar da mənəvi yardımlaşma nümunəsi idi. Covid-19 zamanı Azərbaycan bütün dünyaya göstərdi ki, biz çətin zamanlarda birləşməyi bacaran, təşkilatlanan xalqıq. “Elnən gələn bəla toy-bayramdır” deyimi bu baxımdan bizdə bütün gücü ilə işləyir.

**Nəticə.** Son dövrlərdə Azərbaycan kəndlərinin sürətlə boşalması, əhalinin şəhərlərə, xüsusilə də, Bakıya yığılması yuxarıda sadaladığımız adətlərin də xeyli dərəcədə sıradan çıxmasına səbəb olmuşdur. Ancaq birgəyaşayış qaydaları yardımlaşmanı bir tələb kimi qarşıya qoyduğu üçün xalq ənənəsində mövcud olub sıradan çıxan “institutların” yerinə yenilərinin yaranmasını tələb edir. Bu problem bütün dünyada mövcud olduğu üçün bir çox sosioloq bu məsələyə münasibət bildirmişdir: “Şəhərlərdə ənənəvi strukturların dağılması, yoxsulların hər cür risklərə daha çox məruz qalması bu məkanlarda yeni həmrəylik şəbəkələrinə daha çox ehtiyac yaranması ilə nəticələnib. Buna görə sosial dövlət anlayışının əksi olaraq sosial yardıma üstünlük verən qurum və ya təşkilatlar, bəzi ictimai qurumlar yoxsulluqla mübarizədə mühüm vəzifələrin icrasını öz üzərlərinə götürmüşdür. Bu mənada bələdiyyələr, birliklər, fondlar və qeyri-hökumət təşkilatları ictimai həmrəyliklə bağlı ənənəvi vəzifələri yerinə yetirməklə yanaşı, şəhərdə yoxsulluğun idarə olunmasına öz töhfələrini verirlər (1, s. 251-252). Düşünürük ki, yardımlaşmanı təmin etmək üçün bu cür qurumlar yaradılsa da, bunlar ənənədə mövcud olan və xalqın qanında, canında yaşayan “yazılmamış qanunların” yerini verə bilməz. Çünki bu “qanunlar” min illərin süzgəcindən süzülüb gəlib. Törələrlə bir qrup insanın bir araya gəlib yazdığı və icra etdiyi qaydalar, təbii ki, bir ola bilməz. Ona görə də həmin qaydalar yazılarkən, qurumlar fəaliyyət göstərəkən mümkün qədər ənənəyə istinad edilməlidir. Xalqa aid olan ənənə qırılmamalı, əksinə, toplumda mövcud olan törələr gənc nəslə müasir dövrə uyğun şəkildə təqdim edilməlidir. Və bu uyğun şəklin formalaşdırılması özü də ayrıca tədqiqatın mövzusu olmalıdır.

Xalq ənənələrinin “dağıdılmasında” gündən-günə inkişaf edən texnologiyanın xüsusi rolu vardır. İbrahim Keskin ve Yunus Akif Çelikel Georg Simmelə istinadən yazırlar: “Simmel bizə müasir cəmiyyətdə elm və texnologiyanın daim dəyişdiyi bir mühitdə ənənəvi həyatın sakitliyinin yoxa çıxdığı, yerini xaos və

tələskənliklə əvəz etdiyi bir dünya təqdim edir. Sürətin artdığı və insanların öz təbiətindən uzaqlaşdığı bir həyatı təsvir edərkən, ixtisaslaşmanın yadlaşmaya səbəb olan bir inkişaf olduğunu müdafiə edir. İxtisaslaşma insanları bir-birindən uzaqlaşdırmaqla yanaşı, onları bir-birindən asılı vəziyyətə salır. Müasir cəmiyyətdə insanlar bu dünyaya bağlandıqca reallıqdan getdikcə daha çox ayrılır və bununla da həyatlarında getdikcə daha çox şeyi gizlətmək ehtiyacı yaranır" (4, s. 445-446). Simmelin misal gətirdiyi amillərə baxmayaraq, düşünürük ki, müasir insan texnologiyanın inkişafını ənənənin xeyirinə müəyyən qədər dəyişə bilər. Ənənəni gənc nəslə müasir formada, texnologiyanın köməyi ilə təqdim etmək bu işin yararına olacaqdır.

**Ədəbiyyat**

1. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə: Fərhad Zeynalov və Samət Əlizadə. Bakı, Yazıçı, 1988, 265 səh.

2. Ləman Vaqifqızı (Süleymanova). Dambur ifaçılığı və hayla yaradıcılığı. Bakı, "Elm və təhsil", 2020, 264 səh.

3. Qərbi Azərbaycan folkloru. III kitab. Toplayıb tərtib edən və ön sözün müəllifi: fil.ü.d.İlkin Rüstəmzadə. Bakı, "Elm", 2024, 416 səh.

4. Qərbi Azərbaycan folkloru. IV cild. Toplayanlar: fil.ü.d., dos. Hikmət Quliyev, fil.ü.d., dos. Səfa Qarayev, fil.ü.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Tərtib edən və ön sözün müəllifi: fil.ü.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, "Elm və təhsil", 2025, 416 səh.

5. Şərur folklor örnəkləri. II kitab (Havış kənd sakinindən toplanmış nümunələr). Toplayıb tərtib edən və ön sözün müəllifi: fil.ü.d., dos. Ləman Vaqifqızı (Süleymanova). Bakı, "Elm və təhsil", 2023, 304 səh.

6. Abdullah Topçuoğlu ve Gamze Aksan. Yardımlaşma ve Dayanışma Ağlarını Bir Kent Yoksulluğu Örneği Üzerinden Okumak: Konya. // İdeal kent. Sayı 8, Ocak 2013, ss. 250-269

7. Abdulmuttalip Baycar. Dini ve Sosyolojik Boyutlarıyla Dayanışma Yardımlaşma Olgusu. // Sakarya Üniversitesi İlahiyat Fakültesi Dergisi. Cilt: 21, Sayı: 39, Yıl: 2019, Haziran, ss.199-225

8. Hikmet Demirci, Şınaray Bürkütbayeva. Kazak Misafirperverliği: Ülüş, Misafir Ağırlama ve Tabak Kültürü.\\ Millî Folklor, 2020, Yıl 32, Cilt 16, Sayı 126, ss.198-209

9. İbrahim Keskin ve Yunus Akif Çelikel. Georg Simmel'in Sosyolojik Perspektifinde Toplumsal Tip Olarak "Yoksul". // Adıyaman Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 16, Sayı: 45, Aralık 2023, ss.443-466

11. https://azleks.az/az/online-dictionary/p%C3%B6rn%C9%99k

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 19.05.2026*
*Son variant: 21.05.2026*